ZAMAN NURANİ

## PULDU

*Əsl həqiqəti şərə döndərən,*
*Gerçəyi eyləyən yalan da puldu.*
*Ölümcül xəstəni qəm yatağında*
*Əzrail əlindən alan da puldu.*

*Əbədi sultandı, heç vaxt qocalmaz,*
*O elə şahdır ki, taxt-tacı solmaz,*
*Onda nə etibar, nə ilqar olmaz,*
*Dostu düşman yola salan da puldu.*

*Neçəsi yaşayır qəlbində yara,*
*Neçəsi pul ilə çəkilib dara,*
*Çoxunun qəlbinə bağlayıb qara,-*
*Qəlbləri eyləyən talan da puldu.*

*Qoçaqdı, comərddi, namərddi, mərddi,*
*Bütün kainata bəladı, dərddi,*
*Yaraya məlhəmdi, düşmənə sərtdi,*
*Dar gündə alınmaz qalan da puldu.*

*Gündüzə zülmətdi, gecəyə işıq,*
*Matəmə molladı, şadlığa aşıq*
*Mənliyə şərəfdi, evə yaraşıq,*
*Nurani, sevimli balan da puldu.*

## SÖZÜMSƏN

Mən elə bağlıyam sənə ürəyim,
Dilimdən düşməyən şirin sözümsən.
Əbədi ruzimsən, duzum, çörəyim,
Sən mənim həyatı görən gözümsən

Bərabər yazılıb bu həyat bizə,
Ay mənim müqəddəs Mədinəm, Məkkəm.
Elə bənzəyirik bir-birimizə,
Daha mən demərəm dünyada təkəm.

Sən dərin hikmətsən, sən ulu varlıq,
Belə sevdirmisən özünü mənə.
Olsa da həyatım bircə baharlıq,
Ərmağan edərəm onu da sənə.

Bir anlıq həsrətim min ilə dəyər,
Hayana üz tutsan məni də apar.
Bilirəm hicranın qəddimi əyər,
Qəlb səni həmişə axtarar tapar.

Xatırla həmişə bu nəsihəti,
Bir vaxt yaşlanarsan, gəncliyin solar.
Qoru bu dostluğu, bu məhəbbəti,
Bir zaman Nurani gərəyin olar.

## SULTANIMSAN

*Varlığım əriyir səni görəndə,-*
*Könlümün ətirli gülüstanısan.*
*Hələ də eşqinlə yaşayıram mən,-*
*Sən sevən qəlbimin tək sultanısan.*

*Səni bu dünyaya gətirən ana*
*Demədi zülm elə sevən insana.*
*Səs salıbdı gözəlliyin hər yana,-*
*Sevgi dünyasının zərnişanısan.*

*Sən güləndə çiçək açır çöl-çəmən,*
*Yoxdu sənin kimi nazənin sənəm,*
*Eşqindən od tutub, alışan mənəm,-*
*Sevginin əl çatmaz asimanısan*

*Yanaqların qızıl gülün qönçəsi,*
*Dodaqların incələrin-incəsi,*
*Nuranidir eşqinin pərvanəsi,-*
*Sən onun ruhusan, həm də canısan*

**Gəncə**